# Heydər Əliyev və diaspor quruculuğu





**"Heydər Əliyev İli" çərçivəsində Naxçıvanda keçirilən Diaspor Gənclərinin IV Yay Düşərgəsinin I paneli "Ulu öndər Heydər Əliyevin həyat yolu" mövzusuna həsr olunub.**

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun moderatorluğu ilə keçirilən paneldə millət vəkili, AMEA-nın həqiqi üzvü, Filologiya elmləri doktoru, professor Rafael Hüseynov, Azərbaycanın sabiq baş naziri və keçmiş xarici işlər naziri Həsən Həsənov, sabiq xarici işlər naziri, ölkəmizin Bosniya və Hersoqovinada fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyev çıxış ediblər.

Panel iştirakçılarını və qonaqları salamlayan Komitə sədri müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin ölkə tarixindəki müstəsna rolundan danışıb.

Heydər Əliyevin siyasi olimpə yenidən yüksəlişinin qədim Naxçıvan torpaqlarından başladığını vurğulayan Həsən Həsənov qeyd edib ki, hələ sovet dövründə Azərbaycana rəhbərlik edən Heydər Əliyev müstəqillik dövrünün gələcəyini hər kəsdən daha yaxşı bilir və o zamandan respublikamızı azadlıq mərhələsinə hazırlayırdı.

Heydər Əliyevin xarici siyasət və diaspor quruculuğu sahələrində xidmətlərindən söz açan Vilayət Quliyev nəzərə çatdırıb ki, xaricdəki diaspor təşkilatları zamanla Heydər Əliyevin istədiyi səviyyəyə yüksəlib.

Rafael Hüseynov bildirib ki, Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı azərbaycanlılarla mütləq görüşürdü və tövsiyyələrini verirdi. "Mən bunun şəxsən şahidi olmuşam. Ulu öndər millətimizin bütövləşməsində müstəsna xidmətləri olan ən böyük tarixi şəxsiyyətlərdən biridir".

Tədbirin sonunda diaspor gənclərinə parlaq və xarizmatik şəxsiyyət Heydər Əliyevə həsr olunmuş kitab, eləcə də Azərbaycan tarixini və coğrafiyasını əhatə edən atlas hədiyyə edilib.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 15 avqust.- S.5.